**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

*Əlyazması hüququnda*

**ZEYNƏB İBRAHİM QIZI HATAMZAD**

# "SƏFƏVİ-FRANSA MÜNASİBƏTLƏRİ (XVI-XVIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ)"

**İxtisas: 5502.01 – Ümumi tarix**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün**

**təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**B A K I - 2015**

**Dissertasiya işi Bakı Dövlət Universitetinin "Türk xalqları tarixi" kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:**

**tarix üzrə elmlər doktoru, professor İ.M.MƏMMƏDOV**

**Rəsmi opponentlər:**

**tarix üzrə elmlər doktoru, professor A.B.BAXŞƏLİYEV**

**tarix üzrə fəlsəfə doktoru R.E.AĞAYEV**

**Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi tarix" kafedrası**

**Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 24 fevral 2015-ci il tarixli 52 saylı əmri ilə Bakı Dövlət Universiteninin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "__24___"___10_________2015-ci il tarixli iclasında, saat____$^{00}$ da olacaqdır.**

**Ünvan: AZ-1148, Bakı şəhəri, Z. Xəlilov küçəsi 23.**

**Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.**

**Avtoreferat "____"____________2015-ci ildə göndərilmişdir.**

**Dissertasiya Şurasının elmi katibi,**

**tarix üzrə elmlər doktoru, professor S.Y.SÜLEYMANOVA**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Sovet İmperiyası dövründə hakim ideoloji çərçivə milli respublikaların, bura daxil olan xalqların və millətlərin tarixinin obyektiv yazılmasına imkan vermirdi. Humanitar elmlərin, xüsusilə tarix elminin ideologiyaya qurban verildiyi SSRİ məkanında ayrı-ayrı millətlərə qarşı ayrıseçkilik prinsipi əsas götürülmüş, bir çox xalqların tarixi saxtalaşdırılmış, yaxud tədqiqinə qadağalar qoyulmuşdu. Bu məsələlərdən biri də Səfəvilər dövlətinin tarixi ilə bağlıdır. Səfəvilər dövlətinin tarixinin ayrı-ayrı məsələləri haqqında geniş müzakirələrin aparılmasına və bu mövzunun kifayət qədər aktual olmasına baxmayaraq qeyd etmək lazımdır ki, bu mövzunu Azərbaycan tarix elmində tam araşdırılmış və həllini tapmış məsələ kimi qəbul etmək olmaz. Məlumdur ki, dünya tarixçilərinin əsərlərində səfəvilərə münasibət birmənalı deyil. Belə ki, əksər tarixçilər Səfəvilər dövlətini İran dövləti kimi təqdim edir və Azərbaycanın bu dövlətin bir parçası olduğunu iddia edirlər. Bu yanaşma Səfəvi dövləti ilə bağlı məsələlərin ayrılıqda araşdırılmasını tələb edir və bu mövzunu daha da aktuallaşdırır.

XVI-XVIII əsrin əvvəllərində Səfəvi-Fransa münasibətlərinin öyrənilməsi tarix elminin ən aktual problemlərindən biridir. Mövzunun aktuallığı, ilk növbədə Səfəvilər dövləti ilə Fransa arasında münasibətlərin formalaşmasında bir sıra problemlərin mövcud olması, bununla bağlı bir çox məsələlərin (bura tarixi hadisələr, faktlar və s. aiddir) mübahisəli olması ilə şərtlənir. Ümumiyyətlə, Səfəvi-Fransa münasibətləri dedikdə, burada geniş, çoxşaxəli münasibətləri, məsələn Səfəvi-Portuqaliya, Səfəvi-İngiltərə arasında mövcud olmuş münasibətlərə bənzər əlaqələri nəzərdə tutmaq düzgün olmazdı.

XVII əsrdə Səfəvilər dövləti ilə Fransa arasında heç bir siyasi əlaqə mövcud deyildi, bu o demək deyildir ki, Fransanın Səfəvilər dövlətinə, xüsusilə bu dövlətin əlində olan Fars körfəzinə marağı yox idi, sadəcə olaraq bu dövrdə Fransada hakimiyyətdə olan Valua sülaləsinin Osmanlı dövləti ilə əlaqələri vardı, digər tərəfdən isə, Səfəvilərlə Osmanlılar arasında mövcud düşmən münasibətlər Səfəvilərin Fransa ilə dost münasibətlər qurmasına mane olurdu. 1589-cu ildə Burbonların hakimiyyətə gəlməsi və Valua sülaləsinin hakimiyyətdən uzaqlaşdırılması Fransanın xarici siyasətində də müəyyən dəyişikliklərin meydana gəlməsi ilə nəticələndi.

İngilislərin Şərqi-Hind şirkətinin yaradılmasından on il sonra 1610-cu ildə Fransa kralı IV Henri tərəfindən I Şah Abbasın sarayına keşiş

göndərildi. Bu hadisə bir nəticə verməsə də, bu dövlətlər arasında əlaqələrin yaradılmasında atılan ilk addımlardan biri idi. Məsələ burasındadır ki, sonrakı dövrlərdə siyasi və dövlət xadimlərinin böyük səylərinə baxmayaraq, elə də böyük uğurlar əldə olunmadı, lakin bu sahədə nisbətən uğurlu nəticələri məhz keşişlər əldə etdilər.

Bütün bu hadisələrin gedişində Fransanın ictimai-siyasi vəziyyəti də mühüm rol oynayırdı. Təbiidir ki, dövlət iqtisadi və siyasi cəhətdən gücləndikcə yeni torpaqlar və yeni bazarlar axtarışında olur. Bu dövrdə Avropa dövlətlərindən yalnız Fransa dövləti Fars körfəzindən kənarda qalmışdı. Belə çıxır ki, Səfəvi-Fransa münasibətlərinin qurulmasına Osmanlı dövləti ilə yanaşı Avropa dövlətləri də mane olurdu.

Mövzunun seçilməsi və bu şəkildə qoyulması onun tarix elmində, xüsusilə Azərbaycan tarixşünaslığında obyektiv əhəmiyyəti ilə əsaslandırılır. Bu məsələnin öyrənilməsi bir çox başqa problemləri əhatə edir. Fransa-Səfəvi münasibətlərinin öyrənilməsi XVI-XVIII əsrlər ərzində ümumilikdə Azərbaycanın xarici siyasətini və beynəlxalq münasibətlərdə yerinin öyrənilməsi deməkdir, digər tərəfdən, burada xarici siyasətlə yanaşı, beynəlxalq iqtisadi-siyasi əlaqələrin qurulmasına imkan verən daxili siyasət də nəzərdən keçirilməlidir. Bu zaman məlum olur ki, bütün Səfəvi şahlarının dövründə beynəlxalq iqtisadi-siyasi münasibətlər eyni səviyyədə olmamışdır və bunun da təbii ki, bir sıra səbəbləri vardı. Sadalanan məsələlər bu günə qədər xüsusi olaraq tədqiq edilməmişdir, halbuki onların tədqiqinə böyük ehtiyac vardır.

**Tədqiqatın obyekti.** XVI-XVIII əsrin əvvəllərində Azərbaycan Səfəvilər dövləti ilə Fransa dövləti arasında siyasi, iqtisadi və mədəni əlaqələrin öyrənilməsi, bu münasibətlərin formalaşması və inkişafına təsir göstərən amillərin araşdırılmasıdır.

**Mövzunun öyrənilmə dərəcəsi.** Səfəvilər dövləti haqqında çox sayda əsərlər yazılsa da, bir çox məsələlər hələ tədqiq edilməmişdir. Azərbaycan tarixşünaslığında Səfəvilərin tarixi ilə bağlı bir çox əsərlər yazılmışdır, lakin Səfəvi-Fransa münasibətlərinə, demək olar ki, toxunulmamışdır.

O.Əfəndiyevin Səfəvi dövlətinin XVI əsr tarixinə dair araşdırmaları və Səfəvi dövlətinin meydana gəlməsi məsələsinə və bu dövlətin XVI əsr tarixinə həsr etdiyi monoqrafiya[1], sözsüz ki, bu Azərbaycan sülaləsinin tarixşünaslığına böyük töhfə vermiş və onu xeyli zənginləşdirmişdir.

[1]Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, Şərq-Qərb, 2007.

XVI əsrin ikinci yarısı –XVII əsrin əvvəllərində Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa dövlətləri ilə qarşılıqlı əlaqələrinin öyrənilməsi sahəsində Y.Mahmudov [1] böyük rol oynamışdır. Onun tədqiqatlarının önəmli cəhəti ondan ibarətdir ki, qeyd olunan məsələyə nəinki Azərbaycan, hətta dünya tarixşünaslığında ilk dəfə olaraq ayrıca elmi problem kimi yanaşılmışdır. Y.Mahmudov istər Azərbaycan, istərsə də xarici ölkə tarixçilərinin əsərlərindən, tarixşünaslıq nümunələrindən geniş istifadə edərək, onlara müxtəlif dillərdə olan məxəzlərə istinad etməklə tənqidi yanaşaraq Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa dövlətləri ilə əlaqələrinin inkişafını I Şah Abbasın hakimiyyətinin sonunadək detallarla izləmiş, mükəmməl tədqiqat işi ortaya qoymuşdur.

XVI əsrin ikinci yarısı – XVII əsrin birinci yarısında İngiltərənin Şərqdə ticarət-iqtisadi siyasətinin araşdırılmasına B.Əhmədovun [2]tədqiqat işi həsr olunmuşdur.

Azərbaycan tarixşünaslığında Səfəvilərin tarixinə həsr olunmuş tədqiqat işlərindən biri R.Dadaşovanın [3] əsəridir. Əsərdə Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq Səfəvilərin son dövr tarixi ingilisdilli tədqiqatlardakı, həmçinin ilk mənbələrdəki zəngin fakt materialları əsasında araşdırılmışdır.

Səfəvilərin beynəlxalq ticarət əlaqələrinin öyrənilməsinə həsr olunmuş bir sıra tədqiqat işləri mövcuddur. Bu tədqiqat işlərinə S.Dadaşovanın "Azərbaycan XVI əsrin beynəlxalq ticarətində" əsərini (1991-ci il), D.Əzimlinin "Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı-XVII əsrin I yarısı)" (2010-cu il) əsərini və Ə.Həsənovun "Azərbaycanın sosial-iqtisadi və mədəni həyatı Jan Batist Tavernyenin "Səyahətnamə"sində" (2013-cü il) dissertasiyasını qeyd etmək lazımdır. Lakin onu da bildirmək lazımdır ki, bu əsərlərdə Səfəvi-Fransa münasibətlərinə çox az toxunulmuş, bəzən isə ümumiyyətlə bu məsələ kənarda qalmışdır.

Səfəvi dövləti tarixinin öyrənilməsində Rusiya alimlərinin Azərbaycanın orta əsrlər tarixinə və ümumən İran tarixinə dair tədqiqatları

---

[1]Махмудлу Я. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Баку, Издательство Бакинского Университета, 1991.

[2]Əhmədov B. XVII əsrin birinci yarısında İngiltərənin şərq siyasəti. Bakı, Nafta-press, 1988.

[3]Dadaşova R. Səfəvilərin son dövrü. Bakı, Nurlan, 2003.

böyük əhəmiyyət kəsb edir. Bu əsərlərdən ayrılıqda götürülmüş problemin həllinə həsr olunmuş tədqiqat işləri arasında səciyyəvi, Rusiya-Səfəvi ticarət və siyasi münasibətlər tarixini geniş şəkildə işıqlandırması ilə seçilən P.P.Buşevin[1] əsərini və ingilis kapitalının İran körfəzi rayonuna daxil olma prosesi, orada möhkəmlənməsinə və sairəyə dair araşdırmaların aparıldığı N.N.Tumanoviçin[2] və V.V.Ştokmerin[3] əsərlərini xüsusi qeyd etmək olar.

Tədqiqat obyekti bilavasitə Səfəvi dövləti olmayan bəzi müəlliflərin, o cümlədən P.P.Çerkasov[4], O.P.Markova[5], B.N.Zaxoder[6] və başqalarının əsərlərində əksini tapmış fikir və mülahizələr tədqiqat işi üçün böyük əhəmiyyət kəsb edir. Həmin əsərlərdə İran, Osmanlı, Rusiya, İngiltərə, Fransa və digər ölkələrin tarixinə dair məlumatlar bilavasitə araşdırılan mövzunun müxtəlif problemlərini daha obyektiv işıqlandırmağa imkan verir.

Qərbi Avropa alimlərindən C.Malkolmun[7] müxtəlif məsələlər, o cümlədən Səfəvi dövlətinin diplomatik və ticarət əlaqələrinin tədqiqinə həsr olunan əsərlərində bizi maraqlandıran dövrdə Səfəvi dövlətinin Avropa dövlətləri ilə münasibətləri, Avropa dövlətlərinin Şərqdə yürütdüyü müstəmləkə siyasəti və s. barədə əhəmiyyətli faktik material və maraqlı müşahidələr diqqəti çəkir.

Bu qəbildən fars dilində yazılmış əsərlər içərisində Əli Əkbər Vilayətinin[8] Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi əsəri də əhəmiyyətinə görə seçilir. Əsərdə tədqiqat işimizlə bağlı bilavasitə məlumatlar olmasa da, ümumilikdə Səfəvi-Avropa dövlətləri arasında əlaqələr, Səfəvilərin xarici siyasəti ilə bağlı bir sıra mühüm məlumatlar öz

---

[1]Бушев П.П. Герат и англо-иранская война 1856-1857 гг. М., 1959.

[2]Туманович Н.Н. Европейские державы в Персидском заливе в XVI-XIX вв. М., 1982.

[3]Штокмер В.В. Экономическая политика английского абсолютизма в эпоху его расцвета. Л., 1962.

[4]Черкасов П.П. Судьба империи. М., Наука, 1983.

[5]Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII в. М., 1966.

[6]Заходер Б.Н. Средиземноморье и Ближний Восток в средние века. М., 1940. Заходер Б.Н. Средиземноморье и Передняя Азия (XI-XVIII вв.). М., 1940.

[7]Malcolm J. A History of Persia. Vol. 2. L., 1823.

[8]Velayəti Əli Əkbər. Tarix-e rəvabet-e İran dər əhd-e Şah Esmail səfəvi. Tehran, 1375.

əksini tapmışdır. Burada Səfəvilər dövlətinin Venesiya, Portuqaliya, İspaniya, Almaniya və başqa ölkələrlə iqtisadi-siyasi əlaqələri konkret mənbələr əsasında araşdırılmışdır.

Fars dilində bizim tədqiqat mövzumuzla əlaqəsi olan Seyfəddin Qayemməqaminin[1] İran və Fransa arasında mənəvi və siyasi əlaqələr əsəridir. Bu əsərdə qədim dövrlərdən başlayaraq orta əsrlərə qədər İranla Fransa arasında əlaqələr araşdırılmışdır.

Sadalanan əsərlərdən əlavə, Məryəm Mir Əhmədinin "Səfəvilər dövründə İranın siyasi və ictimai tarixi"[2] əsərini də qeyd etmək lazımdır. Əsər, adından da göründüyü kimi, İranın siyasi və ictimai tarixinin öyrənilməsinə həsr olunsa da, burada Fransa-Səfəvi münasibətlərinə də toxunulur.

**Tədqiqat işinin mənbə bazası.** Bu işin yazılması üçün istifadə olunan materialları iki kateqoriyaya bölmək olar: 1)sənədlər – müqavilələrin mətnləri, rəsmi məktublar, gündəliklər, hadisələrin bilavasitə iştirakçısı olan şəxslərin memuarları 2)bir sıra araşdırılan məsələlərə aid olan elmi-tarixi ədəbiyyat.

Müqavilələrin mətnlərinin nəşri dəfələrlə həyata keçirilmişdir. Bizim mövzu üçün maraq və əhəmiyyət kəsb edən Səfəvilər dövründə Azərbaycan və İranla Avropa ölkələri arasında bağlanan müqavilələrin mətnidir.

XV əsrin sonunda Fars körfəzində olan rus taciri Afanasi Nikitinin[3] məlumatları portuqalların gəlişinə qədər Fars körfəzində ticarət haqqında təsəvvür yaradır.

1503-cü ildə, yəni portuqalların Fars körfəzinə gəlişi ərəfəsində bu rayonlara italyan L.Vartem[4] səfər etmişdi. Öz təsvirlərində səyyah böyük diqqəti Hörmüzə ayırmışdı. XVI əsrin ortalarında ingilislər bu ərazilərə şimaldan, Rusiyadan daxil olmağa çalışdılar. İngilis agentləri tərəfindən tərtib olunan yazılar Britaniyanın müstəmləkə ekspansiyasının yol və üsullarını araşdırmaq üçün kifayət qədər qiymətli mənbə hesab olunur. Cenkinson, Berrou, Edvards və başqalarının gündəlikləri bu baxımdan

---

[1]Seyfəddin Qayemməqami. Rəvabet-e mənəvi və siyasi-ye iran və fəranse, celd-e əvvəl. Tehran, 1349.

[2]Məryəm Mirəhmədi. Tarix-e siyasi və ectemai-ye İran dər əsr-e Səfəvi. Tehran, Moəssese-ye enteşarat-e Əmir Kəbir, h.1371.

[3]Никитин А. Хождение за три моря Афанасия Никитина 1466-1472 гг. М.-Л., 1948.

[4]Varthema L. D. The travels of Ludovico di Vartema, 1863.

xüsusi maraq kəsb edir. Bu gündəliklərdə aydın şəkildə ingilislərin Avropa və Şərq arasında əsas ticarət yollarına sahib olmağa can atmasını müşahidə etmək olar.

XVII əsrin ən məşhur fransız səyyahı J.Şardenin[1] gündəliyi Səfəvilərin daxili və xarici siyasəti ilə bağlı mühüm materialları əks etdirir. Amma müəllif avropalıların bura gəlişi ilə bağlı məsələlərə az toxunmuşdur. Bununla belə Səfəvi dövləti barədə ümumi məlumatlar o dövrdə yerli tacirlərin avropalılarla qarşılıqlı əlaqələri haqqında təsəvvürləri tamamlayır.

K.Bayaninin "Səfəvilər dövründə İranın Qərbi Avropa ilə əlaqələri"[2] adlı kitabı fransız dilində yazılmış və 1937-ci ildə Parisdə çap edilmişdi. Bayani tərəfindən işə əlavə edilmiş geniş biblioqrafik siyahıda 150-dən artıq ad verilir. Bunlar London və Paris arxivlərinin materialları, habelə fars və türk dillərində olan əlyazmalar idi. Bayani bununla yanaşı, kitabın nəşrindən əvvəl çap olunmuş Şərq və Avropa dillərində yazılmış geniş elmi ədəbiyyatla tanış olmuşdu.

Nəsrulla Fəlsəfinin[3] fars dilində yazılmış əsəri adına görə - Səfəvilər dövründə İranın Avropa ilə qarşılıqlı əlaqələr tarixi – Bayaninin əsəri ilə haradasa üst-üstə düşür. Bayanidə olduğu kimi, Fəlsəfinin də əsərində əsasən Səfəvilər sarayında olmuş xarici səfirlərin məlumatları yer alıb.

Nəcəfqulu Muezinin[4] iki cildli kitabı da böyük maraq doğurur. Müəllif xarici əlaqələrə aid olan hissədə daha təfərrüatı ilə Səfəvilər dövlətindən Avropaya getmiş və bura gəlmiş şəxslərin adlarının üzərində dayanır, lakin bu və ya digər səfərin səbəblərini izah etmir.

XVII əsrin sonunda Qərbi Avropa və Osmanlı təcavüzündən müdafiə olunaraq artıq XVIII əsrdə öz iqtisadi və siyasi maraqlarını təmin edən Rusiya öz cənub sərhədlərində işğalçı hücumlara başlayır. Səfəvi şahları və Osmanlı sultanları Rusiyaya qarşı onun avropalı burjua rəqiblərinin (Niderland, İngiltərə, Fransa) köməyi ilə çıxdılar. Rusiyanın beynəlxalq ticarəti və xarici siyasətində baş verən yeniliklər XVI əsrin sonu və XVII əsrin əvvəllərində Azərbaycanda olmuş rus tacir və diplomatlarının

---

[1] Şarden. Səfərname-ye Şarden. Tərcome-ye Eqbal Yəğmayi, c. I- V, Tehran, Çapxane-ye Heydəri, h.1372-1374.

[2] Bayani K. Les relations de l'Iran avec l'Europe occidentale a l'epoque safavide, P.1937.

[3] Nəsrulla Fəlsəfi. Siyasət-e xareci-ye iran dər douran-e səfəviyye. Tehran, 1342.

[4] Moezi N. Tarix-e rəvabet-e siyasi-ye İran və donya əz Həxamənəş ta be həvalət-e əxir. Tehran, 1324.

Azərbaycana həsr olunmuş yazılarında öz əksini tapmışdır (Brexov, Tixonov, Şaxmatov, Baryatinski, Kotov, Romançukov, Kovalev, Suxanov, Pasuxin, de Breyn, Volınski, Bell).

Qərbi Avropa katolik kilsəsinin siyasəti birbaşa və ya dolayısı yolla o dövrdə Azərbaycana gələn Pozern, Perri, Pule, Turnefor, tacirlər Tavernye, Şarden, diplomatlar Fiandr, Kubero, Kareri, iezuit Rodes, Avril, Villot, Avqustin Bacetsi kimi səyyahların yazılarında əks olunmuşdur .

İsveç səfirliyinə ezam edilmiş alimlərin (Kempfer və Brener), holland dənizçiləri və tacirləri Streys və Batter, xüsusilə türk Evliya Çələbinin XVII əsr Azərbaycan haqqında məlumatları daha önəmlidir və xüsusi yer tutur.

XVIII əsrin əvvəllərində Xəzəryanı vilayətlərə rus yürüşləri təşkil olunur və bu yürüşdə iştirak edən Dmitriy Kantemir, Qerber, Yakovlev, Bodan Azərbaycan haqqında çoxlu sayda məlumat vermişlər.

I Şah Abbasın saray tarixçisi Münşi adı almış İsgəndər bəy Türkman bu dövrün ən görkəmli tarixçisi idi. Bir sıra siyasi hadisələrin şahidi və iştirakçısı olan İsgəndər bəy Münşi dövlət arxivlərinə yaxın olmasından istifadə edərək 1629-cu ildə “Tarix-e aləmara-ye Abbasi” (Abbasilərin dünyanı bəzəyən tarixi) başlığı altında Şah Abbasın hakimiyyəti dövrü tarixini tərtib edib. O, bu böyük əsərin girişində (müqəddimə) – burada kompilyativ şəkildə XVI əsr ilkin mənbələr əsasında (Həsən Rumlu və başqaları) 1751-ci ilə qədər ilk Səfəvilər dövrünün tarixi hadisələrini təsvir edir. I hissədə 1571-ci ildən 1587-ci ilə qədər Səfəvilər dövlətinin tarixini, yəni I Şah Abbasın təvəllüdündən onun taxta çıxmasına qədərki dövrü təsvir edir, ikinci bölmə iki hissədən ibarətdir. Onlardan birincisi I Şah Abbasın hakimiyyətinin ilk 30 ilinə aid hadisələri təsvir edir (1587-1616), ikinci hissədə isə 1616-cı ildən 1629-cu ilin əvvəlinə qədər, yəni I Şah Abbasın ölümünə qədərki dövrə aid hadisələr haqqında məlumat verilir. Müqəddimədən əlavə bütün əsər XVI əsrin son rübü və XVII əsrin ilk rübünə aid Səfəvi tarixini öyrənmək üçün çox dəyərli bir mənbədir.

Məhəmməd Tahir Vahid II Şah Abbasın saray tarixçisi şahın 1656-cı ilə qədər hakimiyyətinin xronikasını “tarix-e Şah Abbas-e sani” (II Şah Abbasın tarixi) adı altında yazmışdır. Əsərdə hadisələrin təsviri geniş və təfsilatlıdır. Müəllifin əsas diqqəti saray həyatı, müharibələrə yönəlmişdi, lakin əsərin ayrı-ayrı yerlərində torpaq mülkiyyəti, vergi siyasəti və hətta ayrı-ayrı vilayətlərin qısa tarixinə aid çox maraqlı materiallar yer almışdır. İranda bu əsər geniş şöhrət tapmışdır və bir neçə əlyazması vardır, lakin çap edilməmişdir.

Səfəvilərin XVII əsrdən Avropa ölkələri ilə diplomatik və ticarət əlaqələrinin genişlənməsi ilə bağlı olaraq Səfəvilər dövlətində və qonşu ölkələrdə olmuş avropalı səyyah, tacir, diplomat və xristian missionerlərin çoxsaylı yazıları saxlanılmışdır. Bu yazılar ümumilikdə əkinçilik, aqrar münasibətlərin vəziyyəti, xüsusilə şəhərlərin təsviri, istehsalat, ticarət və səfəvi administrasiyası, əhalinin dini görüşləri, məişət və adət-ənənələri haqqında məlumatlar verirlər. Daha geniş məzmunlu yazıları tərtib etmiş: italyan Pyetro della Valle (1617-1627), ingilis Tomas Xerbert (1627-1629), alman Adam Oleari (1636-1638) və Engelbert Kempfer (1684 və sonrakı illər), fransızlar – tacir J.B.Tavernye (XVII əsrin 40-60-cı illəri), Jan Şarden (1664-1670 və 1671-1677-ci illər), katolik monaxları –missionerlər Rafael dü Man (Səfəvilər dövlətində 50 ildən artıq bir müddətdə qalmışdı 1645-1696) və P.Sansonun (1683-1691), rus səyyahlarından A.F.Kotovun yazıları, habelə XVII əsr rus diplomatlarının hesabatları da böyük əhəmiyyətə malikdir.

Avropa səyyahlarının verdiyi məlumatların dəyəri eyni deyil – səyyahların mədəni səviyyəsi və maraqlarının müxtəlifliyi onların təsvirlərində öz əksini tapmışdı. Savadlı Avropa səyyahları bəzən Səfəvi dövlətinə Avropa ictimai münasibətlərinin və Avropa mədəniyyətinin təsir vasitəsindən istifadə edir və onu tətbiq edirdilər.

XVII əsrə aid Səfəvi tarixinin bəzi təsvirləri müxtəlif müəllif və səyyahların yazılarında kompilyasiyalar təqdim edir. Belə bir təsviri holland de Laet tərtib etmişdir (Fars çarlığı). Don Xuan tərəfindən ispan dilində tərtib edilmiş "Oruc bəy Bayatın" kitabı xüsusi yer tutur. 1599-cu ildə Səfəvi səfirliyinin katibi qismində İspaniyaya gəlmiş qızılbaş tayfası bayatdan olan azərbaycanlı Oruc bəyi belə adlandırırdılar. O, xristianlığı qəbul etdi və həmişəlik olaraq İspaniyada qaldı. Avropa oxucuları üçün Azərbaycanın o dövrdəki tarixinin təsvirini hazırlayan don Xuan yalnız öz bilik və yazılarını deyil, həm də Avropa mənbələrindən (diplomat və səyyahların yazılarından) istifadə etmişdi.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Səfəvilər dövlətinin Fransa ilə əlaqələrinin öyrənilməsidir. Bu məqsədə müvafiq olaraq dissertasiya işinin qarşısında aşağıdakı vəzifələr durur:

-Səfəvilər dövlətinin xarici siyasət tarixinin öyrənilməsi;

-Səfəvilər dövlətinin Avropa dövlətləri ilə (Portuqaliya, İngiltərə, Niderland) əlaqələrinin səbəb və nəticələri;

-Avropa dövlətlərinin Səfəvilər dövlətinə ekspedisiyaları;

-Səfəvilər dövləti ilə Fransa dövləti arasında əlaqələrin yaranma tarixi;

-Fransanın Səfəvilər dövründə ictimai-siyasi vəziyyəti;
-Səfəvi-Fransa arasında siyasi əlaqələr;
-Səfəvi-Fransa arasında iqtisadi və mədəni əlaqələr.

**Tədqiqatın metodoloji əsası.** Dissertasiya işində qarşıya qoyduğumuz məsələni tədqiq edərkən müqayisəli, nəzəri yanaşma metodu əsas götürülmüşdür. Eyni zamanda obyektivlik, tarixi hadisələrə kompleks yanaşma və sistemlilik prinsipləri, bütün mənbə və ədəbiyyatın müqayisəli şəkildə araşdırılmasına söykənən obyektiv tarixi tədqiqat metoduna əsaslanılmışdır. Mənbələrin öyrənilməsi zamanı həmçinin tarixi alternativlik prinsipinə əsaslanılmış, müqayisəli tənqidi təhlilin aparılmasına üstünlük verilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Qeyd etmək lazımdır ki, Fransa və Səfəvilər dövləti arasında əlaqələr (istər siyasi, istərsə də iqtisadi və mədəni) bu günə qədər xüsusui olaraq tədqiqata cəlb edilməmişdir. Buna görə də ümumilikdə məsələnin araşdırılması Azərbaycan tarix elmi üçün ən böyük yenilikdir. Səfəvilər dövründə Fransanın Şərqi Hind şirkətinin fəaliyyəti ilk dəfə öyrənilir;

- Səfəvi-Fransa dövlətləri arasında siyasi əlaqələrin tarixi ayrı-ayrı mərhələlərdə öyrənilir;
- Səfəvi-Fransa dövlətləri arasında iqtisadi əlaqələrin tarixi ilk dəfə elmi-tədqiqat işinin obyektinə çevrilib;
- Səfəvi-Fransa dövlətləri arasında mədəniyyət sahəsində əlaqələrin tarixinin tədqiqi də yenilik təşkil edir;
- Səfəvi-Fransa dövlətləri arasında əlaqələrin inkişafına müsbət və ya mənfi təsir göstərən amillər araşdırılır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqata cəlb olunan materiallardan Azərbaycan tarixi Səfəvilər dövrünün öyrənilməsi və öyrədilməsində istifadə oluna bilər. Tədqiqat zamanı istifadə olunan mənbələr və materiallar gələcək tədqiqatlar üçün yeni mövzular təqdim edir.

Dissertasiya işində ilk dəfə olaraq elmi dövriyyəyə gətirilən materiallar və mənbələr, elmi nəticə və ümumiləşdirmələrdən ali məktəblərdə mühazirə kurslarında istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın məzmunu Azərbaycan Respublikası və İran İslam Respublikasında nəşr olunan elmi jurnallarda dərc olunmuş məqalələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və xronoloji çərçivəsi, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, metod və mənbələri, işin aprobasiyası, dissertasiyanın quruluşu kimi məsələlərdən bəhs olunmuşdur. Problemin aktuallığı, elmi-praktiki əhəmiyyəti yetərincə əsaslandırılmış, dissertasiyanın tədqiqat obyektinin elmi cəhətdən araşdırılma səviyyəsi, yəni mövzunun tarixşünaslığı ətraflı şərh edilmişdir.

Dissertasiya işinin I fəsli **"XVI əsrdə Avropa dövlətlərinin Şərq siyasəti"** adlanır və üç paraqrafdan ibarətdir. Fəslin **"Səfəvi və Fransa dövlətlərinin ictimai-siyasi vəziyyəti"** adlanan birinci paraqrafında Fransa və Səfəvilər dövlətinin bu dövrlərdə ictimai-siyasi və mədəni həyatı araşdırılmışdır.

Fransa XVI əsrdə Qərbi Avropada mərkəzləşdirilmiş ən iri və güclü dövlətlərdən biri idi. Bütün vilayət və əyalətlərin birləşdirilməsi XVI əsrin 30-cu illərinə qədər başa çatdı. Əyalət bölgüsünün qalıqları ayrı-ayrı vilayətlərdə saxlanılmış – Langedok, Provans, Burqundiya, Bretani, Normandiya - əyalət ştatlar idi. Onlar hökumətlə əyalət üzərinə düşən verginin miqdarı haqqında razılığa gəlmişdilər və onun yığılması ilə məşğul olurdular. Fransanın əhalisi 15 milyon nəfər idi və istənilən Qərbi Avropa ölkəsinin əhalisindən çox idi. İqtisadi inkişaf səviyyəsinə görə Fransa İspaniya, Cənubi İtaliya, Skandinaviya ölkələrindən qabaqda idi, lakin İngiltərə və Niderlanddan geri qalırdı. Fransız kəndinin siması XVI əsrdə feodal idi, lakin şəxsi qəbalə asılılığı artıq nadir hallarda müşahidə edilirdi. Kəndlərin əksər hissəsini mülkədarlara müəyyən olunmuş vergi ödəyən varis sahiblər təşkil edirdi. Öz mövqe və vəziyyətlərinə görə onlar təxminən ingilis kopiqolderlərinə uyğun gəlirdilər.[1]

XVI əsrdə Fransada artıq pərakəndə və mərkəzləşdirilimiş manufaktura formasında kapitalist istehsalı meydana gəldi.Fransada mütləq monarxiya XVI əsrin birinci yarısında formalaşmağa başladı. Lakin tam şəkildə artıq vətəndaş müharibəsindən sonra formalaşdı. Onun xarakterik cəhəti bürokratik idarə aparatı və nizamlı ordunun mövcud olması idi. Generak ştatlar simasında təbəqəli nümayəndəlik tamamilə fəaliyyətsizləşdi. Fransız mütləqiyyətinin əsas sosial dayağı feodal dvoryanlıq sinfi idi. Uzun illər

---

[1]История Франции. В 3-х томах. М., 1972. Т.2, с.287.

ərzində kral hakimiyyəti ilə sıx bağlı olan katolik kilsəsi ona dəstək verirdi. Kral hakimiyyətinin etibarlı müttəfiqi formalaşan burjuaziya idi. Onların mühitindən çıxmış mantiya insanları bilavasitə kral hakimiyyətinin siyasətinə təsir göstərirdi. Xüsusilə müharibələr dövründə dövlət xərclərinin artması ilə kral hakimiyyəti yüksək faizlə kreditlərə əl atdılar ki, bu da kredit verən burjuaya böyük kapital yığmaq imkanı verdi. Burjuaziyanın dövlətlə başqa əlaqə forması iltizam sistemi idi. Demək olar ki, bütün dolayısı vergilər o dövrdə finansist adlandırılan iltizamçılar şirkətlərinə iltizama verilirdi. Finansistlər dövlətə nəzərdə tutulan vergiləri verirdilər, sonra isə əhalidən ondan da artıq vergi yığırdılar.[1]

Bütün mərkəzi idarə kral şurasında cəmləşmişdi ki, o da sonradan nazirliklərə çevrilən bölmələrə ayrılırdı. Lakin əsas məsələlər krala yaxın məşvərətçilərin dar çevrəsində həll olunurdu. Kralın böyük ordusu vardı və çox şaxəli məhkəmə -administrativ, bürokratik aparata malik idi. Ordunun başçısı özü idi. Ölkədə antifeodal müxalifət güclənirdi. Kəndlilərin əsas kütləsi katolik idi. Qugenot-dvoryanlarda onlar sinfi düşmənlərini görürdülər. Onların düşmənləri həm də dvoryan-katoliklər idi.

I Fransiskin dövründə yeni torpaqların əldə edilməsi ilk dəfə olaraq dövlət işinə çevrildi.1534-cü ildə I Fransiskin göstərişinə əsasən kapitan Jak Kartyenin dəniz ekspedisiyası təchiz edildi.[2]

Rişelyenin dövründə Fransa 1635-ci ildə Şimali Xristofor, Martinika, Qvadelupa, Dominik adasını və başqa ayrı-ayrı qərbi hind adalarını işğal edir. 1638-ci ildə kapitan Tom Lamber Seneqalın mənsəbində fransız məskəninin əsasını qoydu və onu Sen-Lui adlandırdı. 1638-ci ildə ruan taciri Fransua Koş Madaqaskarda olmuş və burada məskən salmaq istəmişdi. 1642-ci ildə Rişelyenin öldüyü ildə uzaq Kanadada Monreal şəhərinin əsası qoyuldu.Beləliklə, Kardinal Rişelyenin dövründə dəniz və müstəmləkə ekspansiyası ilk dəfə olaraq əvvəlki kimi ticari deyil, siyasi xarakter aldı.

Yeni müstəmləkə torpaqların əldə olunması və köhnə müstəmləkə torpaqların öyrənilməsi fransızların coğrafi biliklərinin genişlənməsi ilə müşayiət olunurdu. 1600-1660-cı illər arası dövrdə Fransada Amerika, Asiya və Afrikanın əvvəllər məlum olmayan ölkələrinin təsviri ilə 450 kitab meydana çıxdı.

---

[1]История Франции. В 3-х томах. М., 1972, т.2, с.467.

[2]Черкасов П.П. Судьба империи. М., Наука, 1983, с.13.

XVII əsrin 70-ci illərində fransız koloniyaları donanma nazirliyinin idarəetməsinə verildi və onların hər birinin başında qubernator və ya general-leytenant qoyulurdu. Beləliklə, müstəmləkə idarə etmə forması müəyyən olundu. Koloniyalar Fransanın özünəməxsus vilayətlərinə çevrildilər.

I fəslin **"Səfəvilər dövlətinin Qərblə tarixi əlaqələri"** adlanan ikinci paraqrafında Səfəvilər dövlətinin ilk dövrlərdən başlayaraq Qərb dövlətlərilə siyasi-iqtisadi və mədəni əlaqələrinin yaranması və inkişafı tarixi öyrənilir. Zamanın gedişi avropalıların Səfəvilər dövləti ilə əməkdaşlığını tələb edirdi. Bu əsasən iki hadisənin nəticəsində baş verdi: birincisi, osmanlı türklərinin hakimiyyətinin genişlənmə və Qərbdən Şərqə doğru ənənəvi ticarət yolları üçün təhlükənin yaranması; ikincisi sufi səfəvilərin hakimiyyətə gəlişi və şiəliyin yayılmasında bu sülalənin güclənməsi və İranda rəsmi status alması. Bu onunla izah olunur ki, Osmanlı imperiyası kifayət qədər sürətlə öz sərhədlərini genişləndirdi və XV-XVI əsrlərin ən qüdrətli dövlətlərindən birinə çevrildi.

Səfəvilərin qərblə əsas tarixi əlaqələrinin başlanğıcını Şah Abbasın hakimiyyəti dövrü hesab edirlər. Hakimiyyətə gələrək o, torpaqları geri qaytarmaq məqsədilə osmanlılarla mübarizədə ordunun hərbi qüdrətini gücləndirmək üçün yeni hərbi islahatlar keçirtdi. Bununla yanaşı, Qərblə münasibətlərin inkişafı üçün tədbirlər gördü. Bu islahatlar Entoni və Robert Şirli qardaşlarının İrana gəlişi, sonra isə onların Hüseyn Əli bəylə Avropa dövlətlərinin saraylarına göndərilməsi ilə başlandı. Öz hökmranlığını yalnız quruda deyil, həm də Fars körfəzində təmin etmək niyyətində olan Şah Abbas portuqalları dəniz ticarət yolundan qovdu. Situasiyanı qiymətləndirərək və bu işi təklikdə bacarmayacağını başa düşərək Şah Abbas dəstək üçün ingilislərə müraciət etməyə məcbur oldu. Buna görə də portuqallara qarşı mübarizədə Şah Abbas və ingilislər arasında ittifaq reallaşdı. Əslində isə ingilislərə məxsus Şərqi hind şirkəti Fars körfəzində öz ağalığını təmin etmək məqsədilə portuqalları yerini tutdu. Kömək bəhanəsi ilə ingilislər Şah Abbasdan bir sıra imtiyazlar aldılar. İngilislərə Bəndər-Abbasda nümayəndəlik, Cəskdə isə ticarət faktoriyası yaratmağa icazə verilmişdi. Onlar öz mallarını İrana vergi ödəmədən aparmaq, Hörmüz gömrük gəlirlərinin bir hissəsini almaq hüququ, habelə İran ipəyini almaq üzərində monopoliya və İrana manufaktura gətirmək hüququ.

Təxminən bir əsr yarımdan sonra 1664-cü ildə II Şah Abbasın dövründə İrana fransız şərqi hind şirkətinin nümayəndələri səfər edirdilər və müqavilə əsasında oxşar geniş hüquq və imtiyazlar əldə etdilər. Fransız

tacirlər tamamilə gömrük nəzarəti hər cür vergi və rüsumlardan azad edildilər. Bu imtiyazlar II Şah Abbas tərəfindən ingilis və holland monopoliyasının iddialarına qarşı olaraq üçüncü qüvvə qismində fransız tacirləri cəlb etmək məqsədilə təqdim edilmişdi. Lakin bu müqavilələrin bağlanması və fransızlara imtiyazların təqdim edilməsi İranın Fransa ilə ticarət dövriyyəsinin artımına gətirib çıxartmadı. Beləliklə, XVII əsrin sonu və XVIII əsrin əvvəllərində ingilis Şərqi hind şirkəti Fars körfəzində fəaliyyət göstərən yeganə qüvvə idi.

I Şah Abbasın ölümündən sonra XVII əsrin əvvəllərində səfəvi hakimlərinə qarşı çox saylı əfqan üsyanları və İsfahanın onlar tərəfindən tutulması – 1722-ci ildə Səfəvi dövlətinin parçalanması özünün son həddinə çatdı. Səfəvilər dövlətinin dağılması onun şimal qonşusu Rusiyanın Baltikyanı və Qara dənizdə möhkəmlənməyə çalışaraq cənuba da hərəkət etmək və Fars körfəzinə çıxış əldə etmək niyyətində olduğu vaxta təsadüf edir.[1]

1507-ci ilin oktyabrında portuqal donanması Hörmüzə yaxınlaşdı. Öz dövlətinin qərb sərhədlərində məşğul olan Şah İsmayıl iki cəbhədə mübarizə aparmaq iqtidarında deyildi. Hörmüz hakiminə kömək məqsədilə o yalnız 500 əsgər göndərdi ki, bu da təbii olaraq Hörmüzü işğaldan xilas edə bilməzdi. Şəhərə ağır təzminat qoyulmuşdu – 1,5 min qızıl tümən və illik xərac 4,5 min tümən. İşğalçılar Portuqaliya hakimiyyətinin icazəsi olmadan Fars və Oman körfəzləri sularında yerli gəmilərə ticarətlə məşğul olmağı qadağan edirdi. Adada onlar tərəfindən öz qarnizonları üçün istehkamın tikilişi başlanmışdı, Hörmüz şəhərində isə ticarət faktoriyasının əsası qoyulmuşdu.[2] Lakin Fars və Oman körfəzlərinin sahilləri boyunca 1507-ci il işğalçı yürüşü portuqalların bu regionda möhkəmlənmələri üçün ilk cəhdləri idi. Yerli əhalinin kəskin müqaviməti və işğalçıların özləri arasında ixtilaflar 1508-ci ildə onları Hörmüzü tərk etməyə məcbur etdi.

Açıq şəkildə portuqal və ispanlarla şərq ölkələrinə onlar tərəfindən tutulmuş yollarda rəqabət aparmaq iqtidarında olmayan ingilis tacirlər yeni dəniz yolları axtarmaqla rəqiblərini üstələməyə çalışırdılar. İspan və portuqalların yeni ölkələrə yol tapmaq və yeni ticarət bazarlarının axtarılması sayəsində var-dövlətinin son dərəcə artdığını görən ingilis tacirlər hesab edirdilər ki, həmin uğurlara nail ola bilərlər və tamamilə yeni

---

[1]Манфред А.З. Внешняя политика Франции 1871-1891. М., 1952, с.146-148.
[2]Туманович Н.Н. Европейские державы в Персидском заливе в XVI-XIX вв. М., 1982, с.35.

və qeyri-adi dəniz səyahəti haqqında düşünürdülər. Bu barədə Klement Adams, Villoubi ekspedisiyasını nəzərdə tutaraq yazmışdır. Ekspedisiya Çinə şimal-şərq yolunun açılmasıını qarşısına məqsəd qoymuşdu, lakin şərait elə gətirdi ki, ingilislər Rusiyanın dərinlikləarinə düşdülər, oradan da onlar İrana keçdilər[1]

Avropada qüdrətlərin nisbətində dəyişiklik portuqalların Fars körfəzindəki mövqelərinə də təsir göstərdi. Bu regionda XVI-XVII əsrin əvvəllərinə doğru portuqal ağalığı ilə mübarizə üçün əlverişli şərait yarandı.

Səfəvilərin güclənməsi Avropa ölkələrinin onunla siyasi və ticari əlaqələrdə maraqlarının artmasına zəmin yaratdı. İngiltərə, Niderland və Fransa da öz növbəsində İranla ticari əlaqələr saxlamaqda maraqlı idilər və bu zaman türk və portuqal tacirlərin vasitəçiliyindən yayınmaq istəyirdilər. XVI-XVII əsrlərin qovuşağında bu Avropa ölkələrində Şərqi-Hind şirkətlərinin yaranması ilə yeni müstəmləkəçilər açıq şəkildə Portuqaliyanın Fars körfəzində ticari monopoliyasına qarşı çıxmağa başladılar və bununla yanaşı Səfəvilər dövlətinə öz səfirliklərini göndərdilər.[2]

XVII əsrin 40-cı illəri portuqalların Fars körfəzi regionundan qovulduğu son tarix idi. [3] Niderland və İngiltərənin portuqalların qovulmasında xüsusilə səfəvi ordusu tərəfindən Hörmüzün alınmasına qədər iştirakı dolayısı idi və ümumilikdə elə də böyük və əhəmiyyətli deyildi.

Fransaya gəldikdə isə qeyd etmək lazımdır ki, bu ölkənin elçiləri ilk dəfə şah sarayında yalnız 1628-ci ildə göründü. Hörmüzün süqutundan xəbər tutan Fransa Səfəvilərə ispan-portuqallara qarşı siyasi və ticari ittifaq təklif etdi.[4] Fars körfəzində fransızlar portuqallara qarşı hərbi əməliyyatlar həyata keçirmədilər, baxmayaraq ki, Portuqaliya və İspaniya ilə mübarizədə Niderland, İngiltərə və Fransa dünyanın bütün bölgələrində portuqal-ispan müstəmləkə və ticari ağalığını məhv etmək hədəfi ilə birləşmişdilər, lakin onların özlərinin də arasında ixtilaflar vardı. Bu ölkələrdən hər biri öz növbəsində müstəmləkə ekspansiya yoluna qədəm qoyaraq daha çox yer və qənimət əldə etmək istəyirdi. Portuqalların Fars və

---

[1]Никитин А. Хождение за три моря Афанасия Никитина 1466-1472 гг. М.-Л., 1948, с.39.

[2]Bayandur A.A. Xəlic-e fars. Tehran, 1317, s. 97.

[3]Əhməd Tacbəxş. İran dər zəman-e Səfəviyye. Təbriz, Çapxane-ye Şəfəq, h. 1340, s.266.

[4]Bayandur A.A. Xəlic-e fars, Tehran 1317, s.88.

Oman körfəzlərindən qovulduğu ana qədər, yəni XVII əsrin ortalarına doğru üç müttəfiq arasında üstünlük Niderlandın tərəfində oldu. Fransa quruda Niderlanddan daha güclü idi, lakin ticarətdə ondan geri qalırdı. İngiltərə də həm müstəmləkə torpaqlarının həcmi, həm mal dövriyyəsi və ticarətlə məşğul olan gəmilərin sayına görə ondan geri qalırdı. XVII yüzilliyin nümunəvi kapitalist ölkəsi idi ki, müstəmləkə sistemi kifayət qədər inkişaf etmişdi və ingilislərin Fars körfəzinə daha erkən daxil olmalarına baxmayaraq XVII əsrdə Fransanın dünya ticarətində əldə etdiyi uğurlar Fars və Oman körfəzlərindəki situasiyaya da təsirini göstərirdi.

Fransız səfirliyinin Səfəvilər dövlətinə gəlməsi Fars körfəzində qüvvələr münasibətlərə təsir göstərmədi. Burada rəqiblər əvvəlki kimi hollandlar və ingilislər çıxış edirdilər. Bundan əlavə, ingilislər tədricən rəqiblərin təzyiqi altında geri çəkilirdilər. I Şah Abbasın ölümündən sonra ingilislərə verilən imtiyazlar ixtisar edildi, hollandlar isə əlavə imtiyazlar aldılar [1] XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Səfəvilərin zəifləməsindən ingilislər Fars körfəzində mövqelərini genişləndirmək və möhkəmləndirmək məqsədilə istifadə etdilər. Bu dövrdə həmin regionda fransızların təsiri də gücləndi.

XVIII əsrin əvvəllərində fransızlar Fars körfəzi regionunda fəaliyyətlərini artırmağa başladılar. 1708 və 1715-ci illərdə son səfəvi şahı sultan Hüseynlə əlverişli müqavilələr bağlamağa nail oldular. Fransız tacirlər vergi və rüsumlardan azad edilmişdilər və yerli hakimiyyət mülkiyyətlərini saxlamağa zəmanət verirdilər.

I fəslin “**XVI əsrdə Səfəvi-Fransa münasibətləri**” adlı üçüncü paraqrafı Səfəvilər dövləti ilə Fransa dövləti arasında əlaqələrin tarixinin öyrənilməsinə həsr olunmuşdur. Tarixşünaslıqda bu dövrdə iki ölkənin münasibətlərini ümumi şəkildə aşağıdakı mərhələlərə bölürlər:

1.XVI-XVII əsrin əvvəllərində iki ölkə arasında mövcud olmuş əlaqələr;

2.Fransanın xüsusi nümayəndələri, səyyah, keşiş və tacirlərin İranda olması və iki ölkənin istedadlarının tanıdılması və təqdim edilməsində rolu.

3. XVII əsr ərzində, xüsusilə 1664-cü ildə Fransanın Şərqi-hind şirkətinin yaradılmasından sonra iki ölkə arasında əlaqələrin yaranma səbəbləri və stimulları.

---

[1]Туманович Н.Н. Европейские державы в Персидском заливе в XVI-XIX вв. М., 1982, с.127.

4.Məsqət ərəblərinin Fars körfəzində görünməsindən 1722-ci ildə İsfahanın süqutuna qədər iki ölkə arasında mövcud əlaqələr.

Dissertasiyanın II fəsli**“Səfəvilər dövləti ilə Fransa dövləti arasında siyasi əlaqələr”** adlanır və üç paraqrafdan ibarətdir. **“I Şah Abbasın dövründə Səfəvilər dövlətinin xarici siyasəti”** adlanan birinci paraqrafda Səfəvilər dövlətinin bu dövrdə ümumiyyətlə, Qərb dövlətləri ilə əlaqələri öyrənilmişdir.

Şah Abbas dəfələrlə səfirliklər vasitəsilə Rusiya, Fransa, İspaniya, German imperatoru, Roma papası ilə əlaqə saxlamışdı. Bir sıra Avropa ölkələrinin tacirləri də Səfəvilər dövlətində imtiyazlar alırdılar, lakin bu imtiyazlar Avropa tacirlərinə şah hökumətinin Avropa dövlətləri ilə müqavilələrdən güddüyü siyasi və iqtisadi mənfəət müqabilində verilirdi. Nə Şah Abbasın, nə də onun varislərinin dövründə Səfəvilər Avropa dövlətlərindən müstəqillik əldə edə bilmədi. Şah Abbasın dövründə Səfəvilər dövləti əvvəlki dövrlərə nisbətən daha mərkəzləşdirilmiş idi və Avropa dövlətləri ilə əlaqələr də kifayət qədər yaxşı idi.[1]

İkinci fəslin ikinci paraqrafı **“Fransa-Osmanlı münasibətlərinin Fransa-Səfəvi münasibətlərinə təsiri”** adlanır və adından da göründüyü kimi, burada Osmanlı dövlətinin Səfəvi-Fransa münasibətlərinə təsiri öyrənilir.

Teymur sarayının Avropa ölkələri ilə münasibətlərinin yaranması və yaxınlaşmasına səbəb olan Osmanlı dövlətinin qərbdə işğalları Anqre məğlubiyyətindən sonra bir müddət dayandırıldı. Hərbi zərurət və xüsusi siyasi vəziyyət əsasında yaranmış İran və Fransa münasibətləri osmanlıların təhlükəsinin qarşısı alındıqdan və Teymurun ölümündən sonra unuduldu. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, aşağıdakı amillər bu iki ölkənin əlaqələrinin kəsilməsinə gətirib çıxartdı:

1)VI Şarlın fəaliyyəti Trua müqaviləsi, vəliəhdin tüğyan etməsi və Fransada daxili və yüzillik müharibələr.

2)Əmir Teymurun canişinləri dövründə qeyri-sabitlik və daim Teymur imperiyasını sarsıdan müstəqillik uğrunda cəhdlər.

3)Fransa dövlətinin Balkan dövlətlərində osmanlıların inkişafına etinasızlığı və onun şərq məsələlərinə diqqətsiz olması.

Səyahətçilərin yazıları, tacirlərin gətirdiyi mallar və Səfəvilərin şərqdəki işğalları Avropa əhalisinin, xüsusulə fransızların diqqətini çəkdi

---

[1]Nəsrulla Fəlsəfi. Siyasət-e xareci-ye iran dər douran-e səfəviyye. Tehran, 1342, s.179.

və hər bir qrupu bu dövlətli və zəngin dövlətdən istifadə etmək fikrinə saldı. Lakin başqalarından daha çox vəziyyətlə tanış olan, digər tərəfdən Avropa padşahları və papa sarayının Osmanlı sultanları ilə düşmənçiliyindən xəbərdar olan Fransa çalışırdı ki, ticari əhəmiyyəti baxımından Hindistandan, hərbi gücünə görə isə Osmanlılardan geri qalmayan Səfəvilər dövləti ilə siyasi əlaqələr qursun, lakin Osmanlı-Səfəvi düşmənçiliyi bu əlaqələrin qurulmasına mane olurdu və Fransa çox yaxşı bilirdi ki, Səfəvilərlə ən kiçik rəsmi münasibət Osmanlıların narazılığına səbəb olacaq və nəticədə Babe Alidəki nüfuzu, Aralıq dənizindəki üstünlüyü və nəhayət Osmanlı imperiyasından keçən qərbə gedən şərq ticarət yollarından istifadə imtiyazları itirilə bilər. Buna görə Fransa siyasətçiləri hesab edirdilər ki, çox ehtiyatla hərəkət etmək lazımdır və Osmanlıların narazılığına səbəb ola biləcək addım atılmamalıdır və Fransanın şərqdə siyasəti onun mənafelərinin qorunması baxımından daim Fransa dövlətinin vasitəçiliyi ilə Osmanlı və Səfəvi imperiyalarının dostluq və yaxınlığına əsaslanmalıdır.

Lakin Səfəvi və Fransa əlaqələri haqqında bütün siyasi səylər, nəzəriyyələr 1610-cu ildə IV Henrinin öldürülməsi ilə sona çatdı və ya ən azı müəyyən bir müddətə unuduldu.

**“Din xadimlərinin Fransanın siyasi həyatına təsiri”** adlanan üçüncü paraqrafda din nümayəndələrinin iki dövlət arasında əlaqələrin yaradılması və inkişafındakı rolundan bəhs edilir.

Kardinal Rişelye 1622-ci ildə XIII Luinin siyasi tapşırıqla İstanbul və Fələstinə getmiş müşaviri təcrübəli siyasətçi Lui de Hay baron de Qurmenini Şah Abbasın yanına göndərmək qərarına gəldi. Lakin Baron de Qormenin Səfəvi torpaqlarına yollanmazdan əvvəl Rişelyenin planını icra etmək üçün İsveç və Danimarka rəsmiləri ilə müzakirə, siyasi və ticari vəziyyəti araşdırmaq məqsədilə bu iki ölkəyə getmək tapşırığı aldı. Baron uğurla keçən bu səfərdən sonra Fransaya qayıtdı və qısa bir müddət Parisdə qaldıqdan sonra lazımi göstərişlərlə Səfəvilər dövlətinə tərəf hərəkət etdi. Kardinal Rişelyenin fikrinə görə, əgər fransız katolik keşişlər Səfəvi torpaqlarında məskunlaşıb möhkəmlənsələr, ispanlar, ingilislər və hollandlara müqavimət, şərqdə Fransa üçün bazanın yaradılması və nəhayət fransızların ticarətinin Asiya qitəsində cəmləşməsi kimi bir çox problemlər asanlaşar və öz həllini tapardı. Bu nöqteyi-nəzəri və şərqdə Fransanın siyasətinin addımlarını təmin etmək üçün Baron de Qormenin göstərişə əsasən Konstantinopol yolunu seçdi və bu şəhərə çatdıqdan və əlaqədar orqanlarla müzakirə və təmasdan sonra türklərin kəskin reaksiyası ilə

qarşılaşdı, belə ki, nəzakətli şəkildə onun Səfəvi torpaqlarına getməsinə mane oldular, çünki Osmanlı dövlətinin böyükləri onun səfərinin əsl mahiyyətini anlamış və onu öz siyasi və ticari mənafelərinə zidd hesab etmişdilər. Digər tərəfdən, bu dövrdə Səfəvi və Osmanlı dövlətləri bir-birilə daim düşmən münasibətində idilər və onlar arasında bağlana biləcək sülh müqaviləsinə heç bir ümid yox idi. Nəticədə, XIII Luinin elçisi İstanbulda bir müddət ləngidikdən sonra heç bir işi yerinə yetirmədən boş əllə Fransaya qayıtdı.[1]

Kardinal Rişelye Baron de Qormenin uğursuzluğundan xəbər tutanda və biləndə ki, Fransanın Şərqdə siyasətini inkişaf etdirmək və fransız keşişləri Səfəvilər dövlətində yerləşdirmək üçün siyasi məmurların əlindən bir iş gəlməyəcək, onda bu məsələni keşişlərin özlərinə həvalə etdi ki, onlar diplomatiya yolu ilə və siyasi təmtəraqlı müzakirələr və addımlarla həyata keçməyən bir məsələni dini təbliğat adı altında mülayim tonla mütəvazi davranış və sadə təbiətlə yerinə yetirsinlər.

Şah Abbasın ölümündən sonra Səfəvi və Fransa dövlətləri arasında böyük ümidlə başlamış siyasi, dini və ticari əlaqələrin genişləndirilməsi məqsədilə səylər əvvəlcə daxili və xarici müharibələr, ondan sonra isə kardinal Rişelye və Luinin ölümü səbəbi ilə uzun müddət təxirə salındı və iki ölkə arasında siyasi əlaqələr unuduldu, halbuki keşişlər və tacirlər gediş-gəlişi davam etdirirdilər və fürsət axtarırdılar ki, ali məqamların köməyi və himayəsi altında əvvəlki imkanı geri qaytarsınlar.[2]

Dissertasiyanın III fəsli **"XVII-XVIII əsrin əvvəlləri Səfəvi-Fransa münasibətləri"** adlanır və iki paraqrafdan ibarətdir. **"Səfəvi-Fransa dövlətləri arasında diplomatik əlaqələr"** adlanan birinci paraqraf bu dövrlər ərzində iki dövlət arasında əlaqələrin yaranması və inkişafına təsir göstərən müsbət və mənfi amillər araşdırılmışdır.

Azərbaycan bu yüzillikdə beynəlxalq siyasətin ən iri fiqurlarından birinə çevrilir. Azərbaycan Səfəvilər dövlətinin Qərb dövlətləri ilə münasibətləri geniş beynəlxalq əlaqələr xarakterini alır. Bu əlaqələrin genişlənməsi üçün əsas stimul ticarət idi.

Beynəlxalq əlaqələrin inkişafına Səfəvilər sülaləsinin ilk şahının – I Şah İsmayılın siyasəti də zəmin yaratdı, belə ki, o aydın şəkildə Qərblə

---

[1]Seyfəddin Qayemməqami. Rəvabet-e mənəvi və siyasi-ye iran və fəranse, celd-e əvvəl. Tehran, 1349, s.183.

[2]Nəsrulla Fəlsəfi. Siyasət-e xareci-ye iran dər douran-e səfəviyye. Tehran, 1342, s.83.

qarşılıqlı iqtisadi əlaqələrin inkişaf zərurətini anlayırdı. Şah İsmayıl onun ölkəsində yaşayan və bura gələn xristianlara yaxşı münasibət bəsləyirdi. Onlar ibadət üçün azadlığa malik idilər, öz kilsələri vardı. Ölkədə çox sayda yunan, yəhudi, erməni yaşayırdı. Anonim venesiyalı tacir qeyd edir ki, onların hər birinin xüsusi xidməti ilə birlikdə kilsəsi vardı və müsəlmanlar tərəfindən təqib olunmurdu. Şah İsmayılın xristianlara səmimi münasibəti birinci növbədə Qərbi Avropa, xüsusilə Venesiya, Avstriya, İspaniya, Portuqaliya ilə yaxınlaşmağa yönəlmiş xarici siyasi kursla diktə olunurdu.

Bu fəslin ikinci paraqrafı "**XVII-XVIII əsrin əvvəllərində Səfəvi-Fransa dövlətləri arasında iqtisadi əlaqələr"in** öyrənilməsinə həsr olunmuşdur.

Uzun müddətli tənəzzüldən sonra XVII əsrin əvvəlində başlamış ümumi iqtisadi yüksəliş şəhərlərin inkişafında öz əksini tapir. Təsadüfi deyildir ki, XVII əsr mənbələri əvvəlki əsrlərin mənbələrinə nisbətən peşə-sənət sexləri haqqında daha çox danışır.[1]

Qərbi Avropa ölkələrindən XVII əsrdə əsasən bunlar daşınırdı: İngiltərə və Fransa və İtaliyadan mahud və ümumiyyətlə tekstil mallar, Venesiyadan güzgü və pəncərə şüşələr, metal məmulatları, fransız şərabı, şəkər, lampa, kağız. Daha çox tələbat londra adlanan mahuda idi. Farsların özlərinin arasında bu mahudla alver edən xüsusi tacirlər – londraforuş (londra satanlar) vardı. XVII əsrin sonunda İsfahanın üç karvansarayında bu londraforuşlar ticarət edirdilər. Beləliklə, artıq XVII əsrdə Qərbi-Avropa malları, əsas etibarilə tekstil malların daşınması o qədər böyük idi ki, İran sənət sənayesi üçün ciddi rəqabət yarada bilərdi. İranda əsasən burada istehsal olunmayan Qərbi Avropa və rus malları satılırdı, məsələn, mahud.

Fransız tacirləri XVII və XVIII əsrlərdə Fransanın Şərqi-hind şirkətinin ticarət mərkəzlərini fəaliyyətə gətirmək üçün Bəsrə və Bəndər-Abbas limanına daxil oldular. 1623-cü ildən Karams dini təbliğatçılar Bəsrədə məskunlaşdılar. Tavernye 1639-cu ildə Fars körfəzinə səfər etdi və Fransanın siyasi orqanlarına körfəz haqqında bir sıra məlumatlar verdi. Kolber XIV Luinin naziri 1665-ci ildə ticarət şirkəti təsis etdi və Bəndər-Abbasda bir emalatxana yaratdı. 1669-cu ildə Fransanın Şərqi-hind şirkətinin üç gəmisi ilk dəfə olaraq Fars körfəzinə daxil oldular, 1674-cü ildə Peti Delakrua XIV Luinin rəsmi fərmanına görə rahiblərin Bəsrədə

---

[1]Səfərname-ye Tavernye. Tərcome-ye Əbuturab Nuri, Esfəhan, çapxane-ye pərvin, h.1336, s.165.

hamisi və Fransa konsulu oldu və ömrünün sonuna qədər orada qaldı və 1741-ci ildə elə orada da vəfat etdi.

Fransanın Fars körfəzində dini, ticari və konsulluq fəaliyyəti iki yüz ildən artıq davam etdi. Bəndər-Abbasın ticarət mərkəzi də XVII və XVIII əsrlərdə fəal idi, lakin 1770-ci ildən Fransa şirkəti əfqan üsyançılarının hücumu ilə bağlı olaraq dağıldı. Fransızların İranda fəaliyyətləri davam edirdi, belə ki, fransız dini təbliğatçılar və tacirlər İsfahan, Şiraz və Bağdada qədər irəlilədilər. Onların gəmiçilik mərkəzləri Böyük Fransa inqilabına qədər Bəsrədə və Bəndər-Abbasda qaldı. 1759-cu ildə Kont d’’Eten dörd Niderland gəmisi Fars körfəzinə hücum etdi və İngiltərənin Bəndər-Abbasda ticarət mərkəzini işğal etdi.

Səfəvilər dövləti süquta uğramamışdan əvvəl bir neçə fransız heyəti yeni ticarət əlaqələri qurmaq məqsədilə İrana gəldi. Bu heyətlərdən biri Berlandirin rəhbərliyi ilə müəyyən müqavilələr imzalamağa nail oldu. Səfəvilər dövlətinin süqutu bir müddət ölkənin xarici ticarətini durğunluğa uğratdı. 1789-cu ildə Fransa inqilabı başladığı zaman dünyada vəziyyət dəyişdi. Fransız qüvvələr Misiri işğal edə bildilər və sonra Napaleon Bonapart Fars körfəzi və Oman dənizi vasitəsilə Hindistana qoşun çəkməyə çalışdı. Fransa qarşısında Avropa ölkələrinin düzülüşünü nəzərə alaraq o bu hədəfə çata bilmədi, lakin Məsqətlə dost münasibətlər qura bildi və bu münasibətlər bir il davam etdi.[1]

İran sarayına XIX əsrin əvvəllərindən Mehdi Əli xan Xorasaninin daxil olması ilə özünə cəlb etməyə nail olan ingilislər 1800-cü ildə ser Con Malkomu Tehrana göndərməklə müqavilə imzalamağa nail oldular. Bu müqaviləyə əsasən fransızlar və ya əfqanlar İrana hücum edəcəkləri təqdirdə İngiltərə İrana kömək edəcəkdi. Bu müqavilənin maddələrindən birinə əsasən İran və İngiltərə öz öhdələrinə götürürdülər ki, Fransa donanması Fars körfəzinə daxil olduqda və ya Fransa ordusu İranın limanlarından birində düşdükdə fransızları dəf etmək üçün tədbir görsünlər. Lord Minto, Hindistanın baş komandanı həmin məsələni 1808-ci ildə Con Malkom üçün bəyan etdi. İranda qarşıda qoyulan məsələlərdən biri fransızları İrandan çıxartmaq və onlar tərəfindən Fars körfəzində adalar, limanlar və ya dayanacaq yaradılmasına mane olmaqdır.[2]

---

[1]Məsud Moradi. Fəranse və xəlice fars, s. 97-121; Tarixe rəvabete xareci, № 171, Tehran, 1373, 104.
[2]Yenə orada, 105.

Fransızlar 1880-ci ildən çalışdılar ki, yenə Fars körfəzinə yaxınlaşmaq üçün addım atsınlar. Onlar Bəsrə və Xürrəmşəhrdə ticarət mərkəzlərini təsis emək üçün 1880, 1882, 1883-cü ildə müəyyən addımlar atdılar, lakin nəticə əldə edə bilmədilər.

Fransa 1884-cü ildə özünün ilk qənd məhsulunu Fars körfəzinin bazarına təqdim etdi. Fransa qəndinə tələbat böyük oldu və o, Almaniya və Belçika qəndinə rəqib oldu. Fransa gəmiləri Fars körfəzində qənd daşınması ilə məşğul olmağa başladılar (dörd dəfə 1886-cı ildə, bir dəfə 1889-cu ildə, iki dəfə 1890-cı ildə). Məsələn, 1889-cu ilin dekabrında 14020 kisə Buşəhrə və 11000 kisə qənd Bəsrəyə daşındı. Fars körfəzində Fransa qənd ticarətinin canlanması ona gətirib çıxartdı ki, fransızlar Buşəhri abadlıq baxımdan genişləndirmək qərarına gəldilər.

Fransız tacirlər Buşəhr və Bəndər-Abbasda ticarət mərkəzi təsis etdilər. Bununla yanaşı, 1895-ci ildə dəniz sərnişin və yükdaşıma şirkəti yaratdılar. Bu şirkət Bombey, Bəsrə və İranın bütün limanları arasında aylıq dəniz xidməti təşkil etmək niyyətində idi. Bu gəmiçilik xidməti öz işində uğurlu olmadı və fransız gəmi şirkət sahibləri Fars körfəzində fəaliyyət göstərmək ümidini itirdilər. Vadala Fransanın Bəsrədə konsul müavini yazır: Lakin dörd Fransa hərbi gəmisi 1900, 1903 və 1908-ci illərdə Fars körfəzinin bütün limanlarını gəzdi və əhali tərəfindən qarşılandı.[1]

Jozef Braso Fransa fabrikantları tərəfindən Buşəhrdə bir ticarət bürosu və bir məktəb təsis etdi. Lakin onun ölümündən sonra bu mərkəzlərin fəaliyyəti dayandı. Fransa dövləti 1899-cu ildə bu şəhərdə öz konsulluğunu yaratdı. Fransa dövləti Culfada Buşəhrin 10 kilometrliyində iki böyük binadan ibarət geniş bir mülk aldı və Fransa nümayəndəliyi bu binada məskunlaşdı. Bir konsulluq bürosu Şirazda və biri də Bəndər-Ləngedə təsis edildi. Bəndər-Lənge konsulluğun nümayəndəliyi çox tez fəaliyyətini dayandırdı, lakin Bəsrə konsulluğu hələ də fəaliyyət göstərirdi. Fransa arxeoloqları Şuşda arxeoloji qazıntılar apardıqları zaman öz tapıntılarını Buşəhr yolu ilə Fransaya göndərirdilər. Qeyd etmək lazımdır ki, bir sıra görkəmli şəxsiyyətlər Fars körfəzinə səfər etmişlər ki, onların arasında Diyolafua, Perboti, Desko və bir neçə Fransa şahzadəsinin adını çəkmək olar.

Dissertasiya işinin **"Nəticə"** hissəsində mövzu üzərində aparılmış araşdırmalara yekun vurulmuş, tədqiqatın gedişində əldə olunmuş elmi qənaətlər ümumiləşdirilmişdir.

---

[1]Xocəste M. Bəhreyn dər do qərn-e əxir. Şiraz, 1338. s.76

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Səfəvi-Fransa dövlətləri arasında əlaqələr //Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Bakı, 2013, № 2, s. 401-406
2. Səfəvilər dövlətinin Qərblə əsas tarixi əlaqələri // Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Bakı, 2013, №1, s. 25-30.
3. The Role of Priests in France-Safavid Bilateral Affairs // Life Science Journal (İSSN 1097-8135). Marsland Press, USA. July 17, 2013, p.399-401.
4. The Social and political stature of France in the Safavid Era // Life Science Journal (İSSN 1097-8135). Marsland Press, USA. July 17, 2013, p.402-404.
5. Foreign policy of the Safavid Empire During Shaha Abbas 1 // Life Science Journal (İSSN 1097-8135). Marsland Press, USA. July 17, 2013, p.405-407.
6. XVII-XVIII əsrin əvvəllərində Səfəvi-Fransa dövlətləri arasında ticari-iqtisadi əlaqələr // Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Bakı, 2014, №1, s. 58-64.
7. Внешняя политика государства сефевидов в период Аббас Шаха 1 / В мире научных открытий. Материалы XVI Международной научно-практической конференции 30 июня 2015 г., Москва, 2015, с.14-17.
8. Fransa-Səfəvi münasibətlərində keşişlərin rolu // Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Bakı, 2015, №2, s.42-46.

**З.И.Хатамзад**

## Сефевидо–французские отношения (XVI- нач. XVIII вв.)

### Р Е З Ю М Е

Сефевидо-французские отношения в XVI - начале XVIII века являются одним из актуальных проблем исторической науки.

Диссертация состоит из введения, трех глав, заключении и списка использованной литературы.

Во введении обоснована актуальность темы, ее научная значимость и хронологические рамки, показаны степень изученности и источниковедческая база проблемы, определены цели и задачи исследования. Во введении также показаны методологическая база, научная новизна и практическое значение исследования.

Первая глава диссертации называется «Восточная политика Европейских государств в XVI веке» и состоит из трех параграфов. В этой главе изучена общественно-политическая и культурная жизнь Французского и Сефевидского государств в эти периоды, история появления и развития политических, экономических и культурных связей Сефевидского государства с западными странами.

Вторая глава диссертации - «Политические связи между Сефевидским и Французским государствами» - состоит из трех параграфов. В этой главе изучены связи Сефевидского государства с западными странами в этот период, проанализировано влияние Османского государства на Сефевидо-французские отношения, говориться о роли религиозных деятелей в зарождении и развитии связей между двумя государствами.

Третья глава диссертации называется «Сефевидо-французские отношения в XVII – начале XVIII вв.» и состоит из двух параграфов. В этой главе исследованы положительные и отрицательные факторы, оказавшие влияние на появление и развитие между двумя государствами в данный период, и экономические связи между Сефевидским и Французским государствами в XVII – начале XVIII вв.

В заключительной части диссертации подведены итоги исследования, сделаны обобщения и анализ полученных результатов.

**Z.I.Hatamzad**

**Safavid - France relation ( XVI – at beginning XVIII centuries)**

**S U M M A R Y**

Safavid – France relation XVII – at beginning XVIII centuries is one of the actual studies problem in history science.

Dissertation workd is consist of introduction, three chapter, conclusion and list of used litreture.

In introduction of dissertation work there are relation theme its actuality and science importance, grounded chronology frame, expounded problem of level study historiography, theme objectives and research purposes. In relation with this theme there are provided by methodological base, innovation and practical were showed importance.

First chapter of dissertation work, is called " European States policy on Eastern State in XVI century", consist of two paragraphs. First paragraph is " Safavid and France social-political situation" there are investigate Safavid and France social political and cultural condition. Fisrt chapter`s II paragraph is "Safavid State with West historical relation" as the matter of fact Safavid State is the first state who dveloped with West countries states relation in fields of political-economy, formation of cultural relationships is compleat studied.

Second chapter of dissertation work is called "Political relation between Safavid and France state" consist of the 3 paragraph. I paragraph is «Savafid States in period of Shakh Abbas I foreign policy" there studied compleat foreign political strategies of these periods. II paragraph is "Ottoman-France relation and it influence on Safavid-France relation", there are studies Ottoman France relation`s influence to Safavid-France relation. III paragraph is " Political life influence of France religion activists" there are dedicate to religion figures influence role on Safavid and France relation.

Third chapter of dissertation work is “ Safavid-France relation in XVII – XVIII in beginning centuries”, consist of 2 paragraph. I paragraph is called “ Safavid – France diplomatic relation, there studied and revealed positives and negatives formation as their main factors.

Dissertation work`s conclution there are ongoing research and summarized result also carried on analized.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ЗЕЙНАБ ИБРАГИМ гызы ХАТАМЗАД**

# СЕФЕВИДО-ФРАНЦУЗСКИЕ ОТНОШЕНИЯ

**(XVI – нач. XVIII вв.)**

**Специальность: 5502.01 –Всеобщая история**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора**

**философии по истории**

**БАКУ - 2015**